# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 23 avqust tarixli 196-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə"nin 5.7-ci bəndinə əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiya üzvlərinin sayı 7 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının rəhbəri

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının Şəhərsalma nəzarəti şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının Şəhərsalma və memarlıq şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Aparatının Hüquq və daxili nəzarət sektorunun müdiri

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyində publik hüquqi şəxs statuslu Layihə Planlaşdırma Mərkəzinin İdarə Heyətinin sədri.

2. “Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının tərkibi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 fevral tarixli 11 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “25” dekabr 2024-cü il

№ 69